

■ Rizvan Nəsiboğlu

## ALQIŞ

*Unudulmaz, böyük aktyor F.Poladova*

...Dəyişdiyin dünyada
günün hansı vaxtıdı;
Səhərin dan yeridi,
günü günortasıdı?!
Bilmirəm,
Ora dünyanın harasıdı...

Süjetsiz bir dünyadasan;
Başının altı torpaqdı,
üstünün göyü torpaq,
Qibləmizin öyü torpaq!

...İndi ruhların, səhnəsindəsən,
“Azad adam” əsərində,
Baş roldasan!
(Bağışla, səhnə bir az
qaranlıqdı,
adamlar bir az seyrək)
Rejissorun əcəldi,
operatorun fələk.

...Arxayın ol,
heç olmasa, qadının
yuxularında sənə
Bir dəstə gül gətirəcək!.

## AXŞAM

Küçə işıqlarına tapşırıb,
getdik yatmağa.
Atıldıq qara dərd kimi
gecənin ağuşuna.
Divar saatının
döyüntülərini
Çəkib üstümüzə -
Uyuduq sükutun “çıxışına”.

Ovsunçu kimi
gecə qapadı gözlərimizi.
Dodaqlarımız -
bir işıqlı əlnən “tikildi”
Ömrümüzün bir gecəsi də
paslı bir qəpik kimi
Yoxa çəkildi...

...Dan üzü -
Qızıl rənglə bələndi
yer üzü.
Ağ göyərçin kimi
yuxularımızdan uçdu səhər.
Qarşıdakı axşamlar
bizi gözləyir
Daralmış səbrimiz qədər...

## BİR NÖQTƏ GÖZLƏYİR...

Bir nöqtə gözləyir hər gödək ömrü,
Nə göydən boylanır, nə yerdə gəzir.
Düşüb dalımızca bizdən xəbərsiz,
Avtobus gözləyir, şəhərdə gəzir.

Xəlvətə çəkilir səhər, ya axşam,
Nə səsi duyulur, nə kölgəsi var.
Yağışda, küləkdə üzülür tamam, -
Hər yolda, döngədə bir zərrəsi var.

Quru budaqdadı, qəfil qəzada,
Adına əcəl də deyirlər ancaq.
Alın yazımızdan qorusalar da,
“Cümlənin” sonunda gəlib çıxacaq.

Yatandan yatana gəlib yetişər,
Dünyanın yuxulu çağında gedər.
Nöqtə var, uzaqdan yadına düşər,
Nöqtə var, nəfəs tək yaxında gedər.

Bir nöqtə gözləyir, gəzən cümləyik,
Küləkdən keçirik, çəndən keçirik.
Hələ bitməyibdi alın yazımız
Nəsə yarımçıqdı... gendən keçirik

## HƏSRƏT

Bu eşq qəlbi yağmaladı,
Həsrət canı imzaladı,
İkiyə iki caladıq -
Dörd oldu, beşə çıxmadı.

Yar deyib, göyə göynədik,
Ürəyi oda söykədik,
Bir ömür boyu neynədik, -
Şəklimiz qoşa çıxmadı.

Yarpaqlar əl çalar səsə,
Buludlar düşər həvəsə.
Bənövşə elçi düşməsə,
Bahar alqışa çıxmadı.

...Qırıq xətdi, hər ötən gün,
Kimi aşiq, kimi sürgün.
Bu tərsinə ömrümüzün,
Axırı başa çıxmadı.

## MƏKTUB

Asan keçməmişəm, bu yolu atam,
Qarğı at da mindim, məftil maşın da.
“Dünənki nağılı” unutmamışam,
Bir dərdli xəyal var, mənzil başında.

Yaşılım boz oldu, ağım qırmızı,
Yazı payızıymış hər dönük çağın.
Yeyər ölənəcən yaddaşımızı,
Utancaq olmağın, təmiz olmağın.

Hələ sıxılıram, içimdə özüm,
Bəzən üz-üzəyik, bəzən özgəyik.
Kövrək arzusunu ürəyimizin,
Bir xəlvət hücrəyə atıb gözlədik.

Asan qoymamışam daş üstünə daş,
Sözü də min dəfə seçib deyirəm.
Mən şeir yazanda sürgünəm qardaş,
Şeiri cəhənnəmdən keçib deyirəm!

Tənələr yemişəm çəpik yerinə,
Özümü yandıran közəm, bilirəm.
Taleyin daş kimi təpiklərinə -
Daş paltar geyinib dözə bilirəm.

Min sirli duyğu var göyün tağında,
Günlər qara olur, günlər ağ olur.
Bu boyda dünyada göz qabağında,
Şairi dağ kimi unutmaq olur
Şam ağacı

## “ŞAM AĞACI TOZ ÇƏKƏN OLUR.”

Arzu şirin gəlir uzaq olanda,
Boy verib süzürsən solu-sağı sən.
Mən torpaq yemişəm uşaq olanda,
Allahın bilirsən toz udmağı sən.

Maşınlar şütüyür, adamlar gedir,
Qış var, həyəcanı yaza qarışır.
Ömür var - içində ağrılar gedir,
Can var - xatirəsi toza qarışır.

Sükuta boğulur payızı, qışı,
Küləkdə, yağışda səsini duyduq.
İllərdi yol sevib, yolda qalmısan,
Adını bəs niyə “toz udan” qoyduq?!

Telində sırğadı payızın çəni,
Qaraya çalırsan budaq-budaq sən.
Bir gün “Şah tut” kimi çırpsalar səni,
Zamanın tozuna çevriləcəksən!

Sən də bir adamsan, ayaqlı, başlı,
Qaçaq qarışqanı fil eləməkdən.
Bəlkə də bu tərif sənə yaraşdı,
Toz yemək yaxşıdı, sözü yeməkdən!

## TƏNHA İŞIQLAR

Bir tənha adamdı, hər tənha işıq,
Bir azca fağırdı, bir az utancaq.
Nə vaxtdı könlümü dilə tuturam,
Dara çək, tünlükdən danışmayacaq!

Yaxından lalədi, uzaqdan zərdi.
Axşamdan-axşama yolumca düşər.
Kölgəsi könlümün qəmi qədərdi,
Gözdən itənəcən dalımca düşər.

Ağlayır şam kimi, göz yaşı yoxdu,
Zülümdü, zillətdi uzaqda yanmaq.
Baxırsan, bir gilə təlaşı yoxdu,
Allahı danmaqdı, işığı danmaq.

Təkəlli sallanıb göydən aşağı,
Taleyin bölgüsü düz düşə bilməz.
Bir tənha adamın sarı işığı, -
Bir qara gecəylə sevişə bilməz.

İşıqsız, umudsuz duyğular sönür,
Hər təzə arzumuz təzə qar kimi.
Qiyməti qəpiyə dəyməyən ömür,
Yox olur tənhaca işıqlar kimi!

